Y.M.Əlizadə, Q.M.Məhərrəmli

# AZƏRBAYCAN EFİRİ: TARİX VƏ MÜASİRLİK

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Bakı – "Nurlan" – 2006

*"Azərbaycan Televiziya və Radio Verilişləri"*
*QSC İdarə Heyətinin qərarı ilə nəşr edilir*

*Redaktor:* **Əli Həsənov**
tarıx elmləri doktoru, professor

*Rəyçi:* **Rafael Hüseynov**
filologiya elmləri doktoru, professor

**Əlizadə Y.M., Məhərrəmli Q.M.**
Azərbaycan efiri: tarix və müasirlik.
Bakı, "Nurlan", 2006. - 184 səh.

Kitabda Azərbaycan milli radiosu və televiziyasının təşəkkülü, elektron KİV vasitəsi kimi formalaşması, mürəkkəb inkişaf yolu, yaradıcılıq baxımından və texnoloji cəhətdən keçdiyi tarixi mərhələlər işıqlandırılmışdır.

Geniş oxucu auditoriyası üçün nəzərdə tutulmuş əsərdə radio və televiziyanın tarixini əks etdirən bir sıra yeni sənədlər və teleradionun ilk əməkdaşlarının xatirələri də verilmişdir.

Ə $\frac{4702000000}{N-098}$ 2006

© "Nurlan", 2006

*Azərbaycan televiziyası və radiosu zəngin və şərəfli inkişaf yolu keçərək xalqımızın yüksək əxlaqi dəyərlərinin, ictimai-siyasi ideallarının, mədəniyyətinin, arzu və istəklərinin ifadəçisinə çevrilmişdir. Bu gün milli televiziya və radiomuz, sözün əsl mənasında, xalqın tribunasıdır.*

*Müstəqilliyimizin əbədiliyinin və milli dövlət quruculuğu prosesinin dönməzliyinin təbliğində, müstəqil Azərbaycan dövlətinin indiki dirçəliş mərhələsində televiziya və radionun fəaliyyəti əvəzolunmazdır.*

**Heydər Əliyev**



## GİRİŞ

Bütün dünyada kütləvi informasiyanın nəhəng kanallarından sayılan televiziya və radio milyonların tribunası olmaq etibarilə cəmiyyətin məlumatlandırılmasında, xalqın yaradıcı qüvvəsinin səfərbərliyə alınmasında, demokratiya və hüquqi dövlət quruculuğu prosesinin genişlənməsində, tamaşaçı və dinləyicilərin estetik dünyagörüşünün formalaşmasında önəmli rol oynayır. Bəşəriyyət informasiyalı cəmiyyətə yaxınlaşdıqca, informasiya - kommunikasiya texnologiyaları sürətlə inkişaf etdikcə bütün dünya üçün bu elektron vasitələrin rolu və əhəmiyyəti də artır.

Azərbaycan müasir dünyanın radio və televiziya sisteminə ən tez yiyələnmiş ölkələrindən biridir. Radio ölkəmizdə 1926-cı ildə dil açıb, otuz il sonra, 1956-cı ildə isə evlərimizi televiziya ekranları işıqlandırıb. Bu mənada 2006-cı il teleradiomuz üçün yubileylər ilidir: Azərbaycan radiosu 80, televiziyamız isə yarıməsrlik yubileyini qeyd edir. Doğrudur, bu illərin böyük bir hissəsi sovet dönəmində yaşanıb və həmin dövrün ideologiyasına uyğun olaraq bu kütləvi kommunikasiya vasitələri daha çox təbliğat aləti rolunu oynayıb. Amma bununla yanaşı, Azərbaycan teleradiosu təkrarsız polifonik struktura çevrilərək həmişə ictimai-mədəni həyatımızın bir parçası olmuşdur. Efir uzun illər ərzində milli mədəniyyətimizin, ədəbi dilimizin, musiqi, teatr və kino sənətimizin inkişafında böyük rol oynamışdır. Azərbaycan televiziyası və radiosu bu gün də bütövlükdə cəmiyyətimizin güzgüsü, bizim ümumi mədəniyyətimizin, düşüncə tərzimizin, əxlaq və təfəkkürümüzün parlaq göstəricisidir.

Zəngin, şərəfli bir tarixi yol keçmiş Azərbaycan radiosu və televiziyası həmişə ictimai ideaların carçısı olmuş, xalqmızın mə-

dəniyyətinin, dilinin, milli-mənəvi dəyərlərinin inkişafına layiqli töhfəsini vermişdir. Televiziya və radiomuz bu gün müstəqil dövlətimizin dünyaya açılan geniş pəncərəsi, Yer kürəsinin hər yerinə yayılan gur səsidir. Bu elektron informasiya vasitələri hazırda müstəqillik və demokratik cəmiyyət quruculuğu yolunda inamlı addımlarını atan Azərbaycanın, onun ən yeni tarixinin salnaməsinin yazılmasında fəal iştirak edir. Milyonlarla tamaşaçı və dinləyici ölkəmizdə gedən ictimai-siyasi proseslər və nəhəng quruculuq işləri barədə, ilk növbədə, məhz Azərbaycan televiziyası və radiosunun proqramlarından xəbər tutur.

Teleradiomuz təkcə informasiya, məlumatlandırma və maarifləndirmə işi görmür, həm də yeni dövlət quruculuğu prosesinin iştirakçısıdır, Azərbaycan dövlətçiliyinin qorunmasında, ideoloji düşmənlərimizə qarşı mübarizənin ön cəbhəsindədir. Təsadüfi deyildir ki, ümummilli liderimiz Heydər Əliyev ekran-efirin çoxşaxəli işini qiymətləndirərkən demişdir: **"Milli televiziya və radiomuz müstəqil dövlət quruculuğu prosesini hərtərəfli işıqlandırmaqla bərabər, həm də taleyüklü anlarda xalqın əsl tribunasına çevrilərək, onun istək və arzularını, ölkə həqiqətlərinin çarçısı rolunu dönmədən həyata keçirir".**

* * *

Bu gün bəşəriyyətin qloballaşma dövrünə qədəm qoyduğu bir vaxtda Azərbaycan televiziyası və radiosu bu çağdaş dünyanın informasiya məkanının bir parçası kimi çıxış edir. Eyni zamanda həmin informasiya kanalları öz milli simasını saxlayaraq ölkəmiz haqqında həqiqətlərin carçısı rolunu oynamaqda davam edir.

Hələ dünənə qədər biz özümüzü başqalarına tanıtmaq üçün qədim xalçalar, qayaüstü rəsmlər, tarixi arxitektura nümunələrindən söhbət açırdıq. Zəngin tarixi keçmişimizin müəyyən anlarını yaşadan bu maddi dəlillərlə əcdadlarımızın düşüncə tərzi haqqında danışır və öz qənaətlərimizi başqalarına da təlqin edirik. Bu gün isə televiziya milli dəyərlərimizin, təfəkkürümüzün, intellektimizin və mədəniyyətimizin göstəricisi roluna daha çox iddialıdır. Ölkəmizə səfərə gəlmiş hər hansı əcnəbi muzeyə baş



çəkməzdən əvvəl bizi televiziyadan seyr edə bilir. Bəzən bu zahiri görüntülər, məzmundan asılı olmayaraq, dolğun vizual təəssüratlar, xalqımız və cəmiyyətimiz haqqında müəyyən qənaətlər formalaşdırır. Ona görə də biz teleyayımla bağlı olan bu amili, habelə digər sosial-psixoloji amilləri unutmamalıyıq.

Müasir dünya televiziya və radioları həm milli-ictimai və sosial-psixoloji, həm də sənət amillərini və tamaşaçı marağını nəzərə alaraq işləyir. "İşləyir" ifadəsini burada sözün geniş mənasında qəbul etmək lazım gəlir. Çünki indi cəmiyyət həyatının tərkib hissəsinə çevrilmiş teleradio klassik funksiyaları (məlumatlandırma, maarifləndirmə və əyləndirmə) yerinə yetirməklə yanaşı, həm də toplumun idarə olunmasında, ictimai rəyin formalaşmasında, elmi-texniki tərəqqinin inkişafında, qlobal inteqrasiya proseslərində fəal rol oynayır. Buna görə də indi televiziya və onun hər hansı gerçəkliklə bağlı verilişləri qədər heç nə geniş, qızğın mübahisələr və ziddiyyətli rəylər doğurmur. Biz hər gün televiziyanın sehrli qüvvəsini duyur və bu cazibəni heç nə ilə müqayisə edə bilmirik. Hətta son vaxtlaradək "XX əsrin möcüzəsi" adlandırılan kino da artıq çoxdan özünün texniki kamilliyini və böyük cazibə qüvvəsi ilə fərqlənən mövqeyini mavi ekrana verməli olmuşdur.

Radio və televiziya bugünkü inkişaf mərhələsinə çatmaq üçün əzablı yollardan keçməli olmuşdur. Bu vasitələrin adi texniki qurğudan mükəmməl informasiya sisteminə çevrilməsi üçün uzun illər, bənzərsiz insan zəkası və yeni texnologiyalar lazım gəlmişdir. Biz bəzən böyük zövq, bəzən də narahatlıqla izlədiyimiz televiziya və radionun hansı tarixi prosesləri yaşadığını, hansı mürəkkəb mərhələlərdən keçdiyini, necə formalaşdığını təəssüf ki, dəqiqliyi ilə bilmirik. Səbəbi odur ki, hazırda televiziya və radio tarixinə dair Azərbaycan dilində elmi araşdırmaların, tədris vəsaitlərinin və populyar kitabların sayı çox azdır.

Sizə təqdim olunan bu kitab radio və televiziyamızın müfəssəl tarixini əks etdirir. Burada radionun meydana gəlməsi, Azərbaycan cəmiyyəti ilə bərabər inkişaf etməsi, təşkilat strukturunun formalaşması, texnoloji və yaradıcılıq cəhətdən kamilləşməsi, xüsusən Böyük Vətən müharibəsi illərində, müharibədən

sonrakı quruculuq dövründə, həmçinin müstəqillik illərindəki fəaliyyəti barədə ətraflı söz açılmışdır. Əsərdə eləcə də Azərbaycan televiziyasının təşəkkülü və onun 50 illik ekran həyatı öz əksini tapmışdır. Milli televiziyamızın və radiomuzun tarixi ilk dəfədir ki, oxuculara bir kitabda təqdim olunur. Belə bir məqamı da qeyd etmək istərdik ki, kitabda teleradionun tarixinə dair mühüm sənədlər, Azərbaycanın görkəmli şəxsiyyətlərinin ekran-efirlə bağlı mülahizələri, həmçinin vaxtilə bu sənət ocağında çalışmış insanların maraqlı xatirələri çap olunmuşdur.

Ümid edirik ki, "Azərbaycan efiri: tarix və müasirlik" kitabı oxucularımızın radio və televiziyanın tarixi, keçdiyi inkişaf yolları haqqında, eləcə də bütövlükdə bu bənzərsiz kommunikasiya sisteminin mahiyyəti barəsində təsəvvürlərini xeyli genişləndirə biləcək. Təbii ki, bu kitab ekran-efir haqqında bilgilərinin artmasına laqeyd olmayan gənc telejurnalistlər, rejissorlar, tələbələr üçün də maraqlı bir mənbə olacaqdır. Çünki müəlliflər burada teleradionun inkişaf meyllərini araşdırılmaqla yanaşı, həm də indiyədək televiziya və radio jurnalistikası nəzəriyyəsində nisbətən az işıqlandırılan bir çox mətləblərə toxunmuş, həyatımıza, məişətimizə möhkəm daxil olmuş teleradionun yubileylər ilinədək əldə etdiyi müsbət təcrübəni ümumiləşdirməyə çalışmışlar.

Əlbəttə, biz tarixi ona görə öyrənirik ki, keçmişimizə istinad edib gələcək yolumuzu müəyyənləşdirək, keçdiyimiz bu tarixi yolda buraxdığımız nöqsanları saf - çürük edək, müsbət təcrübəni ümumiləşdirək, sabaha gedən yolumuza işıq sala bilək. bu mənada sizə təqdim olunan kitab milli teleradiomuzun şərəfli keçmişi, bu günü və gələcəyi haqqında düşünməyə sövq edən qiymətli mənbədir.



# I HİSSƏ

## *AZƏRBAYCAN RADİOSU: EFİRDƏ ADDIMLAR*

## AZƏRBAYCAN RADİOSUNUN TARİXİNDƏN

Azərbaycan radiosunun 80 yaşı tamam olur. "Danışan qutu"-nu XXI əsrə çatdıran bu qanadlı illər ölkəmizin maqnit lentlərinə hopmuş fərəhli günlərinin, eyni zamanda ziddiyyətlərlə dolu ictimai-siyasi həyatının bir parçasıdır. Bu illər xalqımızın zəngin mədəniyyətinin efir salnaməsi, misilsiz musiqi xəzinəsi və nəhayət, bizi hər an duyğulandıra biləcək səs yaddaşımızdır. XX əsrin çox burulğanlarından keçən bu illərin ağırlığı, efir əzabları radio sənətini yaşadanların, həmişə onun təəssübünü çəkənlərin çiyinlərində olmuşdur.

Radio, sözün həqiqi mənasında, bu səs məbədinə gedən pillələri hər gün ağır-ağır qalxan yaşlı jurnalistlərin, onların cavan həmkarlarının - redaktorların, reportyorların, şərhçilərin, az qala efirlə nəfəs alan diktorların, rejissorların və cəfakeş mühəndis-texniklərin gözlə görünməyən kollektiv əsəridir. Bu gün həmin "əsəri" Azərbaycandan çox-çox uzaqlarda da intizarla gözləyir, dinləyir və ona inamlı addımlarını atan müstəqil bir ölkənin çoxsaylı dalğalar içərisində eşidilən doğma səsi kimi ehtiram göstərirlər.

Radio XIX əsrin axırlarında kəşf olunsa da, verilişlərin kütləvi yayımlanmasına XX əsrin ikinci onilliyində başlanmışdır. Doğrudur, hələ 1906-cı ildə ABŞ-da Massaçusets ştatında ilk radio verilişi sınaqdan keçirilmişdi. Boston şəhəri yaxınlığında xüsusi ötürücülər vasitəsilə aparılan bu eksperimentlərin müəllifi Recinald Fessenden tezliklə hər gün efirə çıxmaq niyyətində idi. Lakin Birinci Dünya müharibəsi həm Amerikada, həm də Avropada radionun inkişafını xeyli ləngitdi, Hələlik Morze əlifbası - şərti siqnallar sistemi ilə məlumatlar yayan, daha çox



rabitədə və hərbi işlərdə kara gələn radio ünsiyyət və təbliğat vasitəsi kimi bir də müharibədən sonra yada düşdü. Xüsusən Qərbdə bu sahədə yeni eksperimentlər dalğası başlandı. İnadlı səylər öz nəticəsini verdi. Tezliklə Hollandiyada (1919), ABŞ-da (1920), Fransa və İngiltərədə (1922), Almaniya, Belçika və Çexoslovakiyada (1923) müntəzəm radio verilişlərinin əsası qoyuldu. Həmin illərdə Sovet Rusiyası da ciddi-cəhdlə radioefir əldə etməyə çalışırdı.

Azərbaycan radiosu necə yaranıb, hansı texniki-yaradıcılıq mərhələlərindən keçib, 80 ildə nə kimi keyfiyyət dəyişikliklərinə uğrayıb və yeni minilliyin başlanğıcında hansı inkişaf yolunu seçib? Əlbəttə, bu suallara cavab vermək üçün ötən əsrin 20-ci illərinin ortalarına qayıtmaq, arxivlərə baş vurmaq, toz basmış kağızları, rəsmi sənədləri araşdırmaq, tarixin iz saldığı qəzetlərin saralmış səhifələrini vərəqləmək və radionun səs yaddaşını dilləndirmək lazım gəlir. Tarixdən gələn bu səslər zaman-zaman cilalanaraq nələrdən söz açır? Radio öz yaddaşındakı 80 illik salnamənin hansı məqamları üzərinə işıq salır? Onun yaddaş düyməsini işə salan dinləyici orada hansı səsləri eşidir? Bu səslər bizə nələrdən və kimlərdən danışır? Beləliklə, radionun səs yaddaşı tarixin qaranlıq səhifələrinə işıq tutur və biz tanış səsləri eşidirik:

I səs: Əziz dinləyicilər, əvvəlcə sizi Azərbaycan radiosunun keçdiyi inkişaf mərhələlərinə aid materialların qısa məzmunu ilə tanış edirik.

II səs: Danışır Bakı radio stasionu... Milli radiomuzun təşəkkülü tarixindən.

I səs: Efirdə ilk addımlar: texniki vasitədən təşviqata doğru.

II səs: Radioda yeni həyat: ilk diktorlar nələri xatırlayırlar?

I səs: O illərin yarış salnamələri: efir yaddaşından səslər.

II səs: 30-cu illərin bədii verilişləri, yaxud Müslüm Maqomayev ömrünün üç ili.

I səs: Azərbaycan radiosu Böyük Vətən müharibəsi illərində - Səməd Vurğunun Koroğlu nəsillərinə salamı..

II səs: Radio müharibədən sonra... Bərpa və quruculuq illərinin efir xronikası.



**Hörmətli oxucu,**

**“Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununun 18-ci və 19-cu maddələrinə uyğun olaraq müəlliflik hüququnun qorunması məqsədilə əsərin tam mətni ilə Kitabxananın oxu zalında tanış ola bilərsiniz.**